# Molla Pənah Vaqif - 300



***Tüntül kənd tam orta məktəbində böyük Azərbaycan şairi və dövrünün görkəmli siyasi xadimi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir.***

Gecəni məktəbin direktor müavini Aynur Babayeva açmışdır. O bildirmişdir ki, Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında və tarixində özünə məxsus yer tutur. Onun Azərbaycan poeziyasının xalq dilinə yaxınlaşdırılmasında, şeirin ərəb-fars sözlərindən təmizlənməsində böyük rolu vardır.

Tədbirin təşkilatçısı məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Fəxrəddin Babayev Molla Pənah Vaqifin həyat və yaradıcılığından, Qarabağ xanlığındakı siyasi fəaliyyətindən geniş bəhs etmişdir.

Şagirdlərdən Renat Əhmədov, Aynaz Babayeva, Fatimə Səfərli, Elnur Kərimov, Mətin Abdulkərimov, Şəhla Şahverdiyeva, Ramella Əzizova, Rəşid Qədirov, Reyhanə Rəhimova, Gülnur Əzizli, Şəfa Şahverdiyeva şairin müxtəlif qəzəl, qoşma və digər janrda yazılan şeirlərini söyləmişlər. Şeirlərin ifası və Səməd Vurğunun «Vaqif» dramının 8-ci şəklinin səhnələşdirilmiş təqdimatı tədbir iştirakçılarının alqışları ilə qarşılanmışdır.

Qacar rolunu şagirdlərdən Sənan Babayev, Vaqif rolunu Məhəmməd Abdullayev, şeyx rolunu Səyyad Əzizli, vəzir rolunu Ümid Bəşirli, qapıçı rolunu Fəqan İbrahimli, Vidadi rolunu Toğrul İbrahimov məharətlə oynamışlar.

Ədəbi-bədii gecəni məktəbin direktor müavini Aynur Babayeva yekunlaşdırmış, tədbirin hazırlanması və keçirilməsində fəallıq göstərən müəllim və şagirdlərə təşəkkür etmişdir.



Böyük şairin doğumunun 300 illiyi ilə əlaqədar tədbirlər davam edəcəkdir.

**Aynaz BABABƏYLİ,**
**məktəbin VIIIa sinif şagirdi.**

# Ədibin xatirəsi yad edilmişdir

***Ənənəvi olaraq Qəbələ yazarlarının bir qrupu Azərbaycan realist nəsrinin banilərindən biri, general İsmayıl bəy Qutqaşınlının və həyat yoldaşı Bikə xanımın məzarını ziyarət etmişlər.***

Yazarlara Yeni Dizaxlı kənd tam orta məktəbin bir qrup müəllim, şagird kollektivi və ədibin ev muzeyinin işçiləri də qatılmışlar. Əvvəlcə yazıçının və xanımının məzarlarının üstünə gül dəstələri qoyulmuş, onların xatirəsi yad edilmiş və xatirə şəkilləri çəkdirmişlər.

Generalın məzarını ziyarətə gəlmiş Qəbələ şəhər sakini, əvvəllər təmir-tikinti idarəsinin rəisi işləmiş 87 yaşlı İbrahim Kərimov öz təəssüratlarını söyləmişdir. O qeyd etmişdir ki, 60-cı illərdə bu məzarların yeri çətin bilinirdi. Baş və sinə daşları torpağın altında qalmışdı. Biz rayon partiya komitəsinin göstərişinə əsasən burada təmizləmə və abadlıq işləri apardıq. Mərhumların baş daşları torpaqdan, lildən təmizləndi. Ətraf abadlaşdırıldı, yol çəkildi. Sonradan generala qəbirüstü abidə qoyuldu. 1986-cı ildə isə yaxınlıqda xatirə muzeyi yaradıldı.

Tədbir daha sonra generalın ev muzeyində davam etdirilmişdir. Muzeyin bələdçisi Nurlanə Veysəlova iştirakçılara İsmayıl bəy Qutqaşınlının həyatı və yaradıcılığı barədə geniş məlumat vermişdir.

Tədbirə toplaşanlar muzeydən xoş təəssüratla ayrılmışlar.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**«Qızıl Qələm» media mükafatı laureatı.**

# Məktəbdə keçən ömür

Hər bir sənət və peşə sahibi el arasında xətir-hörmət qazana, başqalarına örnək ola bilər. Bunun üçün gərək öz işini ürəkdən sevəsən, ona qəlbən bağlanasan. Qəbələ rayonundakı Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Sadıq Sadıqov məhz belə müəllimlərdəndir. O, 1975-ci ildə ADPU-nun coğrafiya fakültəsini bitirib. Öz peşəsini qəlbən sevən Sadıq müəllim əmək fəaliyyəti dövründə 24 il direktor müavini, 2 il isə direktor işləyib, Azərbaycan müəllimlərinin XII qurultayının nümayəndəsi olub. Müxtəlif müsabiqələrdə, innovativ layihələrdə müntəzəm iştirak edən yaradıcı müəllim 2010 və 2011-ci illərdə "Ətraf mühitin mühafizəsi" üzrə beynəlxalq olimpiadalara qatılıb. Onun "Qəbələni turizm diyarına çevirək", "Təbii gözəlliklər məskəni-Qəbələ" mövzusunda hazırladığı layihə işləri isə nəinki ölkə, həm də bir sıra dünya ölkələri məktəblərinin marağına səbəb olub. 2015-ci ildə rəhbəri olduğu "Gənc meşəçilər" dərnəyi IV Respublika müsabiqəsində II yeri tutaraq Təhsil Nazirliyinin sertifikatını alıb. Ümumilikdə isə o, 25-dən çox fəxri fərmana və diploma sahibdir, 2010-cu ildə Təhsil Nazirliyinin əmri ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. İşgüzar müəllim dərslərini yeni təlim texnologiyaları əsasında qurur, hər bir şagirdə fərdi yanaşır. Sadıq Sadıqov həm də rayonda ictimaiyyətçi müəllim kimi tanınır. O, eyni zamanda 2006-cı ildən "Ekologiyanın Qorunmasına Kömək" İctimai Birliyinin sədridir.



Öz zəngin təcrübəsini həmkarları ilə bölüşməyi sevən Sadıq Sadıqov son illər mətbuat səhifələrində elmi-metodiki məqalələrlə müntəzəm çıxışlar edir. Daim arayıb-axtaran, öyrənən və öyrədən Sadıq müəllim üçün 2017-ci ilin 3 oktyabr tarixi xüsusilə əlamətdar olub. O, məhz həmin gün təhsilimizdəki uzunillik səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyevin sərəncamı ilə «Əməkdar müəllim» fəxri adına layiq görülüb.

Sadıq müəllimi yüksək mükafat alması münasibəti ilə təbrik edir və gələcək işlərində ona uğurlar arzulayırıq.

**Emin ƏDİLLİ,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri.**

# Riyaziyyat gecəsi

***Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində şagirdlərin fənləri dərindən mənimsəmələri və onlarda vətənpərvərlik hisslərinin daha da gücləndirilməsi məqsədilə dərslərlə bərabər sinifdənxaric tədbirlərin də yüksək səviyyədə təşkilinə xüsusi əhəmiyyət verilir. Bu qəbildən olan tədbirlərdən biri də bu günlərdə məktəbin VIIa sinfində keçirilən riyaziyyat gecəsidir.***



Sinif rəhbəri və riyaziyyat müəllimi Günel Seyidovanın təşkilatçılığı ilə keçirilən tədbir viktorinalardan, səhnəciklərdən, riyaziyyatın taixinə, riyazi məsələ və misallara dair suallardan ibarət olub.

Riyaziyyat gecəsi burada iştirak edən müəllimlərin, valideynlərin, digər sinifdən olan şagirdlərin böyük marağı ilə qarşılanıb.

Tədbirin sonunda məktəb direktoru Təranə Səlimova riyaziyyat gecəsində fəal iştirak etdiklərinə görə şagirdlərə və tədbirin təşkilatçılarına təşəkkürünü bildirmişdir.



**Qadir SƏMƏDLİ,**
**məktəbin VIa sinif şagirdi.**

# Tibbi müayinə davam edir

***Ölkə başçısının tapşırığına əsasən respublikamızın hər yerində olduğu kimi, Qəbələ də əhalinin tibbi müayinədən keçirilməsi uğurla davam edir.***

***Əhalinin kütləvi tibbi müayinəsi üçün rayonumuzda hər cür şərait yaradılıb. Sakinlər həkim briqadaları tərəfindən hərtərəfli müayinə edilir, lazım gəldikdə müalicə olunmaq üçün ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilir.***



Mayın 1-dək rayon əhalisinin 18 yaşdan yuxarı 73226 nəfərinin tibbi müayinə olunması nəzərdə tutulub.

İndiyədək 6.000 nəfərdən artıq adam tibbi müayinədən keçib. Onlardan 582 nəfər ambulator, 97 nəfər stasionar müalicəyə cəlb edilib, 39 nəfər isə daha ətraflı müayinə və müalicə olunmaq üçün Bakı şəhərinə göndərilib.

**"Qəbələ"**

# Ana dilinə qayğı

***Qəmərvan kəndi rayonumuzun ən axarlı-baxarlı, təbii gözəlliklərlə zəngin ərazisində yerləşir. Bu təbii gözəlliyə insanların əli ilə yaradılmış göz oxşayan yaşayış evləri, məktəb və sair tikintilər əlavə yaraşıq gətirir. Qəmərvan kəndində həmişə təhsilə, elmə böyük diqqət yetirilib. Bunun nəticəsidir ki, bu kənddə çoxsaylı görkəmli elm xadimləri, bacarıqlı mütəxəssislər, qabaqcıl əmək adamları yetişib.***

Hələ keçmişdən bu kənddə elmə, təhsilə olan maraq bu gün də davam edir.Qəmərvan kənd tam orta məktəbi rayonumuzun qabaqcıl təhsil ocaqları sırasındadır.

Kənddə multikultural dəyərlərə həmişə böyük önəm verilib və bu gündə bu ənənələr qorunub saxlanılır. Kəndin əhalisi əsasən ləzgilərdən ibarət olsa da burada milli mənsubiyyətinə görə qarışıq olan ailələr də var və bu ailələr arasında heç bir milli mənsubiyyətə görə fərqləndirmə halları yoxdur.

Bu yaxınlarda Qəmərvan kənd tam orta məktəbində 21 fevral - Beynəlxalq Ana Dili Günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Bəxtiyar Əliyarov bildirib ki, ümummilli lider Heydər Əliyev azərbaycanda yaşayan hər bir millətin, etnik qrpun dilinin, mədəniyyətinin inkişafı adət və ənənələrinin qorunması üçün mühüm tədbirlər həyata keçirmişdir. Ulu öndərin bu sahədə başladığı iş möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıllıqla yerinə yetirilir.

Məktəbin müəllimi Gülpəri Əliyeva «Beynəlxalq Ana Dili Günü»nün» yaranma tarixi və əhəmiyyəti, ölkəmizdə hər bir xalqın və etnik qrupun ana dilinin inkişafına göstərilən qayğı barədə geniş məlumat vermişdir.

Şagirdlərin ifasında Azərbaycan və ləzgi dillərində şeirlər səslənmiş, səhnəciklər nümayiş olunmuşdur. Münsiflər heyətinin qərarı ilə müxtəlif dillərdə ən yaxşı şeir söyləyən şagirdlər kitab hədiyyələri ilə mükafatlandırılmışlar.

Tədbirdə Qəbələ Rayon Təhsil Şöbəsinin məsul işçisi Rasim Bayramov, jurnalist, bir sıra maraqlı kitabların müəllifi Sədaqət Kərimova, Qəmərvan kəndində doğulub rayonun müxtəlif yaşayış məntəqələrində məskunlaşan və çalışan ziyalılar iştirak etmişlər.

**Aytən VƏLİYEVA,**
**məktəbin müəllimi.**